MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ

Aybəniz Rəhimova
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.229

Türk xalqlarının mədəniyyəti tarixləri qədər çoxəsrli və zəngindir. Yüzilliklər adlamış ümumtürk mədəniyyəti nəsildən-nəslə ötürülərək daha da zənginləşmiş və bəşər tarixinə bəxş etdiyi incilərlə daim diqqət və maraq doğurmuşdur. Elə bu səbəbdəndir ki, türkdilli yazılı abidələrin əksəriyyəti Avropa və Rusiya tədqiqatçıları tərəfindən tərcümə, nəşr və tədqiq edilmişdir.

Məlumdur ki, hər bir xalqın mədəniyyət tarixində şifahi xalq ədəbiyyatı mühüm yer tutur. Şifahi ədəbiyyatın qədim və maraqlı qollarından biri də dastanlardır. Türkiyənin folklorşünas alimi, professor Nəcati Dəmirin təbirincə desək, "Dastan ədəbi məhsul olmaqla bərabər, tarixin qırıq, sökük aynasıdır". Doğrudan da, dastanlarımızda xalqımızın tarixi, ictimai-siyasi hadisələri və müharibələrin gedişi bədiiləşdirilmiş şəkildə əks olunmuşdur.

Ağızlarda dolaşan, dillərdə əzbər olan ümumtürk dastanları əsasən X-XI əsrlərdən etibarən yazıya alınmağa başlanmışdır. XII-XIII əsrlərdə isə türkdilli ədəbiyyat özünəməxsus inkişaf mərhələsinə qədəm qoymuş, şifahi ənənə əsasında yazılı abidələr yaranmış və bu abidələrin nüsxədən-nüsxəyə köçürülməsi prosesi XIX-XX əsrin əvvəllərinə qədər davam etmişdir.

Yazılı dastan abidələrinin yaranma prosesinə nəzər yetirdikdə görürük ki, Avropada kitab çap maşını XV əsrdə icad olunmuş, Şərq ölkələrində isə Osmanlılar XV-XVI əsrlərdə çap texnologiyasını tanısalar da, müsəlman dünyasında XVIII əsrə qədər əlyazma kitaba üstünlük verilmişdir. Bu səbəbdən çap kitablarına uzun müddət ciddi əhəmiyyət verilməmişdir. Osmanlılarda yalnız XVIII əsrin əvvəllərində rəsmi mətbəə fəaliyyətə başlamış, Azərbaycanda isə ilk çap maşını 1819-cu ildə işlədilmişdir.

Azərbaycanın mühüm mədəni mərkəzlərindən biri olan Təbriz şəhərində ilk mətbəənin yaradılması bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu dövrə qədər əlyazma kitabların köçürülməsi işi peşəkar xəttatlar və katiblər tərəfindən həyata keçirilmişdir. Onlar mollaxana və mədrəsə təhsili almış, ərəb və fars dillərini mükəmməl bilən savadlı şəxslər olmuş, əsərləri müqəddəs Quranın əlifbası olan ərəb qrafikası ilə köçürərək günümüzə qədər yaşatmışlar.

Bununla belə, katiblər əlyazmaları sabit orfoqrafiya qaydaları ilə yazmamışlar. Əksər hallarda katibin adı, imzası və köçürülmə tarixi qeyd edilsə də, bəzi yazılı dastan nümunələrində nə müəllif adı, nə də tarix göstərilmişdir. Bu isə həmin abidələrin paleoqrafik təsvirini çətinləşdirir və onları digər yazılı ədəbiyyat nümunələrindən fərqləndirməyi mürəkkəbləşdirir. Belə hallarda mətnin məzmununa bələd olmaq və müxtəlif nüsxələri müqayisə etmək yolu ilə müəyyən nəticələr əldə edilir.

Qədim yazılı dastan abidələri müasir dövrdə aşıqların dilindən yazıya alınan dastanlardan fərqlənir. Orta əsr katibləri çox vaxt mətnə müdaxilə edərək onu öz təxəyyüllərinə uyğun dəyişdirir, şeir parçaları əlavə edir, yeni obrazlar və hadisələr yaradırdılar. Bu baxımdan, yazılı dastan abidələri müəyyən dərəcədə katiblərin yaradıcılıq məhsulu kimi də qiymətləndirilə bilər.

Bununla yanaşı, orta əsr yazılı dastanlarında bəzi standart qaydalar da mövcuddur. Məsələn, bəzi dastanlarda dibaçə olmasa da, sonluq mütləq şəkildə verilir. Katiblər əsərin sonunda adətən dörd misralıq qafiyəli bir qeyd ilə mətni tamamlayırdılar. Bu xüsusiyyət xüsusilə türk yazılı dastanlarında geniş yayılmışdır.

Nəşr edilmiş "Xavərnamə" və "Kitabi-Seyyid Battal Qazi" dastanlarının sonluğu eyni kəlamlarla bitir: "Təmmət-ül-kitab, be oun-il-lillah-ül-mülk-əl-vəhab". Bu kəlamdan sonra məzmun tamamlanır və dastan aşağıdakı misralarla yekunlaşır:

Bunu yazdım yadigar olmaq üçün,
Oxuyanlar bir dua qılmaq üçün.
Həm bu qissə burada oldu tamam [2, s. 419].

Mustafanın ruhuna yüz min salam. Adətən katib oxucudan dastanı köçürdüyünə görə bir dua istəyir. "Battal Qazi" dastanında katibin və kitab sahibinin adları aydın şəkildə qeyd edilmişdir. Lakin elə dastanlar da vardır ki, katib öz adını gizlədir, amma oxucudan dua etməsini xahiş edir. Əməkdar elm xadimi, professor Şamil Cəmşidov bunu belə izah edir: "Katib özünü ya təvazökarlıqdan, ya da müsəlman qaydalarına riayət edərək təqdim etmir, adını gizlədir. Necə ki, müsəlman qəbirlərində baş daşının olmaması, yerlə yeksan olan qəbirlər kimi burada da müsəlman katib adını gizli saxlayır, biruzə vermək istəmir" [3, s. 7].

Türkdilli dastanların yaranmasında tarixi hadisələrin və tarixi şəxsiyyətlərin rolu böyükdür. Dastanlar adətən şahların, sultanların, sərkərdələrin, tanınmış ictimai xadimlərin adı ilə bağlı olur. Xalq sevdiyi şəxsiyyətlərin adına dastanlar qoşur və bu dastanlarda onların igidlikləri, qəhrəmanlıqları, xalqsevərlikləri, atları, silahları, həyat tərzləri və məhəbbətləri tərənnüm edilir. Azərbaycan folklorunun tarixi olduqca qədimdir və onu dünyanın ən mədəni xalqlarının folkloru ilə eyni səviyyədə qiymətləndirmək olar. Dastanlarımızın yazıya alınma tarixi daha qədim olsa da, onların elmi tədqiqi əsasən XX əsrin əvvəllərindən başlanmışdır. Dilimizin "pasportu", milli kimliyimizi təsdiqləyən möhtəşəm Kitabi-Dədə Qorqud dastanı XVIII əsrin ortalarından etibarən Avropa tədqiqatçılarının diqqətini cəlb etmişdir. Bu sahədə ilk mühüm tədqiqatlar alman alimi Fridrix Ditsin adı ilə bağlıdır. Sonralar rus alimi Vasili Bartold tərəfindən də dastan araşdırılmışdır.

1916-cı ildə türk alimi Kilisli Rifat Berlində saxlanılan nüsxə əsasında abidəni İstanbulda nəşr etdirmiş və bundan sonra türk alimləri bu istiqamətdə ardıcıl tədqiqatlar aparmışlar. Fuad Köprülü, Pertev Naili Boratav, Faruk Sümer kimi alimlərin araşdırmaları xüsusilə diqqətəlayiqdir. Bu tədqiqatlar içərisində ən mükəmməl iş 1938-ci ildə Drezden əlyazmasını müasir türkcədə nəşr etdirən Orhan Şaik Gökyayın adı ilə bağlıdır. O, 1973-cü ildə "Dədəm Qorqud" adı ilə 1000 səhifəlik fundamental tədqiqat nəşr etdirərək abidəni hərtərəfli şəkildə araşdırmışdır. Bu gün də həmin əsər ən mötəbər mənbələrdən biri hesab olunur. Digər türk alimi Muharrem Ergin isə "Kitabi-Dədə Qorqud"u Vatikan nüsxəsi ilə müqayisəli şəkildə tənqidi mətn prinsipi əsasında (1958, 1963) iki dəfə nəşr etdirmiş və dastanın dilini Azərbaycanla əlaqələndirmişdir.

Azərbaycanda isə dastanın ilk nəşri 1928-ci ildə Atababa Musaxanlı tərəfindən "Dirsə xan oğlu Buğac xan boyu"nun çapı ilə başlamışdır. 1930-cu ildə Əmin Abid bu mövzuda məqalə ilə çıxış etmiş, 1939-cu ildə isə akademik Həmid Araslı dastanı tam şəkildə nəşr etdirmişdir. Sonrakı dövrlərdə Əbdüləzəl Dəmirçizadə, Əli Sultanlı, Tahir Hacıyev, Kamal Abdulla və digər alimlər tərəfindən dastan geniş şəkildə tədqiq edilmişdir.

Ümumiyyətlə, "Kitabi-Dədə Qorqud" ümumtürk dastan ənənəsinin formalaşmasında və inkişafında mühüm rol oynamışdır. Onun təsiri altında dini-qəhrəmanlıq xarakterli "Seyyid Battal Qazi", "Danişmənd Qazi", "Saltık Qazi" kimi yazılı dastanlar yaranmışdır. Bu dastanlarda Anadolu və Qafqazda yaşamış oğuzların yunanlar, gürcülər və digər xristian xalqları ilə mübarizəsi, həmçinin İslam dininin müdafiəsi mövzuları əks olunmuşdur. Ozanlar

bu dastanları qopuzun müşayiəti ilə ifa etmişlər.

Fuad Köprülünün qeyd etdiyi kimi, "Alplar dövründə ozanların yaratdıqları bu dini-qəhrəmanlıq dastanlarının böyük hissəsi əsasən şifahi şəkildə yayıldığı və yazıya alınmadığı üçün günümüzə gəlib çatmamışdır" [6, s. 245].

Lakin bu mövzuda əlimizə çatmış əsərlər bu növ dastanların oğuzlar, o cümlədən azərbaycanlılar arasında yayılma miqyası barədə müəyyən fikir söyləməyə imkan verir. Fuad Köprülü "Oğuznamə"ləri, o cümlədən oğuznamələrdən biri olan Kitabi-Dədə Qorqudun oğuzların eyni zamanda milli və dini qəhrəmanlıq dastanı olmasını belə qeyd edir: "Bu devir mahsulleri milli bir mahiyyət almış dini kahramanların, yahut islami bir şekle girmiş milli kahramanların menkabelerinden, dini adaba ait didaktik propaganda eserlerinden, biraz da tasavvufi şiirlerden mürekkebdir" [6, s. 254].

Oğuz türklərinin ilk dini-qəhrəmanlıq dastanları məhz "Oğuznamə"lər olmuşdur. Oğuznamələrin əsas hissəsinin müsəlman oğuzların kafirlərlə konflikti üzərində qurulduğunu göstərən filologiya elmləri doktoru Əfzələddin Əjdər bu əsərlərdə oğuzların coğrafiyasının kafirlərlə sərhədlər əsasında müəyyən edildiyini qeyd edir: "Oğuz-kafir konflikti üzərində qurulan Oğuznamələrdə türkman coğrafiyasının 'kafirlə' təmas bölgələrinin cizgiləri verilir. Bunun əksinə olaraq Oğuznamələr Oğuz elini müsəlmanlarla təmas bölgələrinə demək olar ki, biganədir. İş ondadır ki, tarixi gerçəkliyin əksinə olaraq, Oğuznamə müsəlman oğuzla müsəlman türkün, müsəlman ərəbin, müsəlman Şirvanşahın və ya müsəlman monqolun qarşıdurmasını yaxına qoymur" [4, s. 139].

Xalıq Koroğlu isə oğuznamələr içərisində ən məşhuru olan Kitabi-Dədə Qorqud dastanında müsəlman oğuzlarla qeyri-müsəlmanlar arasındakı münasibətlərdən bəhs edərkən göstərir ki, müharibələrin əksər hallarda kafirlərin günahı üzündən başlandığı təsvir olunur: "Qorqud Kitabı"nın "Salur Qazanın evinin yağmalandığı" boyunda oğuzlar təcavüzkar kimi göstərilir. Lakin oğuzları belə hərəkətlərə əksər hallarda kafirlər təhrik etdiklərindən, nə qədər amansız olsa da, onların bu əks tədbirləri eposda o qədər də ittiham edilmir. Əksər hallarda "aman" istəyən kafirləri öldürməyən Qazanın hərəkəti ilə kafirlərin onun ailəsinə qarşı rəftarını (II və IV boylar) müqayisə etdikdə, oğuz bəylərinin humanizmi daha güclü təsir bağışlayır" [8, s. 169].

Tədqiqatçılar göstərirlər ki, Kitabi-Dədə Qorqud boyları ilkin variantda İslamdan öncə formalaşsa da, dastan yazıya köçürülərkən buraya İslam dininin elementləri gətirilmişdir. Professor Bəhlul Abdulla yazır: "İlk cümləsi Rəsuli-əleyhissəlamın adıyla başlayıb, son cümləsi də elə bu müqəddəs şəxsin – Məhəmməd Mustafa səllallahi-əleyhi və alihi vəssəlləmin adıyla qurtaran "Kitabi Dədə Qorqud" boylarında islami görüş və ənənələr asanlıqla seçilən üst qatdadır" [1, s. 4].

Hər halda günümüzə çatmış variantda Kitabi-Dədə Qorqud dastanı İslam dinini təbliğ edən, insanları onun ehkamları, qaydaları və müqəddəsləri ilə tanış edən möhtəşəm dini-qəhrəmanlıq abidəsidir. Əsərin müqəddiməsində Dədə Qorqudun Məhəmməd peyğəmbər (s.ə.s) zamanına yaxın dövrdə yaşadığı göstərilir. "Kitabi-Dədə Qorqud"da hərbi münaqişələr əsasən müsəlman oğuzlarla kafirlər – yəni xristian və bütpərəstlər arasında baş verir. Dastanın qəhrəmanları Məhəmməd peyğəmbərin (s.ə.s) adını uca tutmaqla, Qurani-Kərimdən ayələr söyləyərək, kəlmeyi-şəhadət gətirərək və namaz qılaraq qələbə qazanırlar; kilsələri dağıdıb yerində məscidlər tikirlər. Əsərdə Allahın Qadir, Cabbar, Əhəd, Səməd, Səttar kimi adları tez-tez çəkilir, oğuzlar döyüş zamanı İslami ayinləri icra edir, salavat çevirirlər.

"Oğuzların vuruşları çox vaxt İslam dini və bu dinin sərvəri Məhəmməd peyğəmbər uğrundadır" [10, s. 77). Dastanın "Salur Qazan tutsaq olub oğlu Uruz çıxardığı boyda"

kafərlərin əlində əsirlikdə olan Qazan xan söylədiyi şeir parçasında indiyədək müsəlman sərkərdəsi kimi döyüşdüyü İslama xidmət etdiyini belə ifadə edir: "Məhəmmədin dini eşqinə qılınc urdum" [7, s. 156]. Abidənin "Qazlıq Qoca oğlu Yegnək boyu"nda isə Yegnəyin Tanrıya münacəti Qurani-Kərimin "İxlas" surəsinin tərcümə və sərbəst şərhi təsiri bağışlayır:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən, əziz Tanrı!
Anadan toğmadın, atadan olmadın,
Kimsə rizqin yemədün,
Kimsəyə güc etmədin,
Qamu yerdə əhədsən, Allahu səmədsən [7, s. 96].

İxlas surəsinin tərcüməsində oxuyuruq: "1. De ki, 'O Allahdır, təkdir; 2. Allah hər ehtiyacdan ucadır və əbədidir; 3. Doğmamış və doğulmamış; 4. Onun bənzəri də heç kim olmamış" [11, s. 329]. Göründüyü kimi, gözlənilən boyda bu surənin bütün ayələrindən faydalanılmışdır.
Kitabi-Dədə Qorqudun "Qan Börənin oğlu Bamsı Beyrək boyu"nda Beyrək Bayburd qalasındakı əsirlikdən qurtulduqdan sonra yoldaşlarını xilas etmək üçün oğuz bəyləri ilə birlikdə Bayburda qayıdır. Əsərdə deyilir: "Qalın oğuz bəgləri atlandılar. Bayburd hasarına çapar yetdilər. Kafirlər də bunları qarşıladılar. Lakin oğuz bəgləri arı sudan abdəst aldılar. Ağ alınların yerə qodular. İki rükət namaz qıldılar. Adı görklü Məhəmməd peyğəmbəri yada gətirdilər" [7, s. 66].

Bundan sonra oğuz igidlərinin düşmənlə döyüşü və qəhrəmanlığı təsvir olunur. Göründüyü kimi, Beyrəyin yoldaşlarını xilas etmək üçün başlanmış hərbi əməliyyat müsəlmanların kafirlərə qarşı mübarizəsinə çevrilir: "Şöklü Məliki bögürdübəni Qazan bəg atdan yerə saldı. Dəli Domrulu qılıcladı, yerə saldı. Qara Arslan Məliki Qarabudaq yerə saldı. Dərələrdə kafirə qırğın girdi. Yedi kafir bəgi qılıcdan keçdi. Kafirin kəlisasın yıqdılar, yerinə məscid yapdılar. Keşişlərin öldürdülər, ban banlatdılar. Əziz Tanrı adına qütbə oqıtdılar" [8, s. 77].

Boyların əksəriyyətində oğuzların döyüşlərdəki qələbəsi İslamın qələbəsi kimi təqdim edilir. Əsərin qəhrəmanlarından biri olan Basatın kəlməyi-şəhadət deməsi ilə möcüzə baş verir: Təpəgözün onu öldürmək üçün qurduğu tələdən xilas olur. "Basatın dilinə bu gəldi kim, 'La İlahə İllallah, Məhəmmədən Rəsulallah' dedi. Dedi həman dəm günbəz yarıldı, yedi yerdən qapı açıldı..." [4, s. 131]. Bu motiv də dastanda İslam inancının fövqəltəbii qüvvə kimi təqdim olunmasını göstərir.

Son zamanlar - 2022-ci ildə aşkar edilmiş yeni bir əlyazma, Kitabi-Dədə Qorqudun üçüncü nüsxəsi kimi təqdim olunan Türkmənsəra (Günbət, Tehran) nüsxəsi böyük maraq doğurmuş və mübahisələrə səbəb olmuşdur. Əsərin həqiqətən üçüncü nüsxə olub-olmaması müzakirə olunsa da, şübhə doğurmur ki, Azərbaycan türkcəsində yaranmış bu abidə ölkəmizdə oğuznamə ənənəsinin geniş yayıldığını göstərir.

Bu əlyazma Yusif Azmun və Ramiz Əskər tərəfindən nəşr olunmuşdur. Abidənin mövzu və ideyası, əsas surətləri klassik Kitabi-Dədə Qorqud dastanları ilə eynidir. Burada oğuz türklərinin alplıq və ərənlik ideyaları tərənnüm edilir; Qazan xan obrazında alpın şəxsi keyfiyyətləri, Dədə Qorqud obrazında isə cəmiyyətə yol göstərən müdrik ağsaqqalın funksiyası ön plana çıxır [9].

Məlumdur ki, bu qəhrəmanların kökü islamdan əvvəlki dövrlərə gedib çıxır. Lakin əsərin bizə çatan forması oğuzların artıq müsəlman olduqları dövrdə formalaşmışdır. Bu mərhələdə onlar geniş bir ərazidə, İran, Azərbaycan və Anadolu bölgələrində yeni torpaqlar uğrunda mübarizə

aparır və İslamı yaymaq ideyasını daşıyırdılar. Bu ideya həm klassik Kitabi-Dədə Qorqud boylarında, həm də Günbət nüsxəsində, eləcə də Battal Qazi, Danişmənd Qazi və Saltuk Qazi dastanlarında aydın şəkildə əks olunmuşdur. Qeyd edək ki, Uyğur oğuznaməsini çıxmaq şərti ilə bütün ilkin oğuznamələrdə İslam dininin təbliği mühüm rol oynayır. Rəşidəddinin Oğuznaməsində baş qəhrəman - Oğuz xan anasının bətnində ikən müsəlman olur, doğulduqdan sonra isə anası müsəlman olana qədər onun südünü əmmir.

İki nüsxəsi əlimizdə olan Kitabi-Dədə Qorqud dastanında Dədə Qorqud Məhəmməd peyğəmbərin (s.ə.s) dövründə yaşamış şəxs kimi təqdim olunur. Dastanın qəhrəmanlarından Bəkdüz Əmən Peyğəmbərlə (s.ə.s) şəxsən görüşmüş, daha sonra gəlib Oğuz elində məskunlaşmışdır. Peyğəmbərin şəhid olmuş nəvələrindən söz açan Qorqud Ata belə deyir: "Qadir Tanrı günahımızı adı görklü Məhəmməd Mustafa hörmətinə bağışlasın". Əsərdə oğuz qəhrəmanları namaz qılır, ibadət edir, kafirlərin kilsələrini dağıdaraq yerində məscid tikirlər. Dastanda müsəlman peyğəmbərlərinin bir çoxunun adı çəkilir. Günbət nüsxəsində də İslamın dəyərləri geniş şəkildə təbliğ olunur, qəhrəmanlar Qadir Tanrıya üz tutur, Məhəmməd peyğəmbər (s.ə.s), Hz. Əli, Fatimə, Həsən, Hüseyn, Xızır, Süleyman, Davud, İbrahim, İsmayıl, İdris, Veysəl-Qərani və digərlərinin adları qeyd olunur.

Əsərin əvvəlində soylamalar "Həqq-Təala gökdən Quran endürdi dinli Məhəmmədə oqumaq içün" sözləri ilə başlanır. Burada İslam dininin tarixindən bəhs edilir, müqəddəs şəxsiyyətlərin bu din qarşısındakı xidmətləri vurğulanır. Əsər boyu İslam əxlaqı təbliğ olunur, qəhrəmanlar şəriət qaydalarına riayət edir, Tanrıya sonsuz iman və təvəkkül nümayiş etdirirlər.

"Kitabi-Dədə Qorqud"un Günbəd nüsxəsi adı ilə üzə çıxarılmış bu yazılı abidədə oğuznamələrdən gələn islami dəyərlərə sədaqət və qəhrəmanların bu din uğrunda mübarizəsi əsas xüsusiyyətlərdən biridir. Bu baxımdan abidəni dini-qəhrəmanlıq dastanları sırasına daxil etmək mümkündür. Qeyd etmək lazımdır ki, bu xüsusiyyət oğuzların digər dini-qəhrəmanlıq dastanlarında da özünü göstərir. Məsələn, Battal Qazi, Danişmənd Qazi, Saltık Qazi, eləcə də Xavərnamə və Həzrət Əli cəngləri kimi əsərlərdə də qəhrəmanların İslam uğrunda mübarizəsi və dini ideyaların təbliği aparıcı xətt kimi çıxış edir.

Ədəbiyyat:

1. Abdulla Bəhlul. Kitabi-Dədə Qorqud və islam dini. – Bakı: Ozan, 1977.
2. Aybəniz Rəhimova. "Kitabi-Seyyid Battal Qaz" yazılı dastan abidəsi (monoqrafiya). – Bakı, 2025. – 419 s.
3. Cəmşidov Ş. Azərbaycan yazılı dastan abidələrinin tədqiqi. – Bakı: Nurlan, 2002.
4. Dədə Qorqud kitabı: ensiklopedik lüğət. – Bakı: Öndər, 2004.
5. Əfzələddin Ə. Oğuznamə yaradıcılığı. – Bakı: Elm və Təhsil, 2013. – 177 s.
6. Fuad Köprülü. Türk edebiyatında ilk mutasavvıflar. – Ankara, 1991.
7. Kitabi-Dədə Qorqud / tərt. F. Zeynalov, S. Əlizadə. – Bakı: Yazıçı.
8. Kitabi-Dədə Qorqud / T. Hacıyev, K. Vəli. – Bakı: Öndər, 2004.
9. Kitabi-Dədə Qorqud: Günbəd nüsxəsi / Y. Azmun, R. Əskər. – Bakı, 2022. – 31 s.
10. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. – Bakı: Yurd, 1999.
11. Qurani-Kərim: Azərbaycan türkcəsində açıqlama / N. Qasımzadə. – Bakı: Azərbaycan, 1993.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300